

# Beynəlxalq əməkdaşlıq platforması...

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 10 yaşı olur

*Yeganə BAYRAMOVA*

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) yarandığı vaxtdan xalqımızın qədim mədəni irsinin və zəngin tolerantlıq ənənələrinin təbliğinə qiymətli töhfələr verib. Mərkəz dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı elmi-mədəni mərkəzləri ilə səmərəli əməkdaşlıq münasibətləri yaradıb. NGBM-in yaranmasında əsas məqsəd dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, həmçinin fəaliyyətlərə töhfə verməkdir. Eyni zamanda, Azərbaycan elm və mədəniyyətinin görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvi irsinin araşdırılması, dünyada təbliği, eləcə də dialoq, tolerantlıq, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqun təşviq edilməsidir. Mərkəz qarşıda qoyulan məqsədlərə nail olmaq üçün ətrafında nüfuzlu sabiq dövlət və hökumət başçılarını, həmçinin beynəlxalq ekspertləri birləşdirir.

Prezident İlham Əliyev bu qurumun fəaliyyətini həmişə yüksək qiymətləndirib, Azərbaycanın siyasi, mədəni həyatında onun əhəmiyyətli rol oynadığını bildirib. Cənab Prezident Gəncədə Filarmoniyanın yeni binasının açılışı mərasimində bir daha mərkəzin fəaliyyətinin müasir dövrdə böyük əhəmiyyət daşıdığını diqqətə çatdıraraq deyib: “Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən qlobal forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq beş dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda onlarla həm fəaliyyətdə olan, həm də keçmiş dövlət və hökumət başçıları iştirak edirlər. Hər il bu forum keçirilir və forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir”.

Məlumat üçün bildirək ki, NGBM Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi tədbirlərinin keçirilməsi çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində xüsusi toplantıda təsis edilib. Mərkəz Azərbaycan Respublikasında təsis olunmasına baxmayaraq, qərarverici qurumu dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən təşkil olunmuş beynəlxalq idarə heyətidir.

Mərkəz Bakı şəhərində yerləşir. Ali idarəetmə orqanı dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən ibarət İdarə Heyətidir. İdarə Heyəti 20 nəfər üzvdən ibarətdir. Mərkəzin Avropa qitəsindən 25 ölkədən 53, Amerika qitəsindən 2 ölkədən 6, Asiya qitəsindən 12 ölkədən 15, Afrika qitəsindən 4 ölkədən 5 görkəmli üzvləri vardır (ümumilikdə 79 üzvlər). Mərkəzin həmsədrləri Latviya Respublikasının sabiq prezidenti (1999-2007) xanım Vayra Vike-Freyberqa, Dünya Bankının sabiq vitse-prezidenti (1992-2000) Dr.İsmayıl Serageldin, Baş icraçı direktoru Elnur Əliyev, Baş katibi Rövşən Muradovdur.

Mərkəzin fəal iştirakı və təşkilatçılığı ilə ümumbəşəri məsələlərin ətraflı müzakirəsinin aparıldığı və sivilizasiyalararası dialoqun qurulması, qlobal əhəmiyyətli layihələrin dəstəklənməsi baxımından mühüm əhəmiyyətə malik bir sıra mötəbər forumlar keçirilib.

Xatırladaq ki, cənab Prezident dünya ictimaiyyətinə daha dolğun çatdırılması istiqamətində işlərin görülməsi məqsədi ilə təşkilata səkkiz yüz min manat vəsait ayrılması barədə 23 avqust 2017-ci il tarixdə xüsusi Sərəncam imzalayıb.

Bu gün NGBM ənənəvi olaraq Bakıda təşkil olunan Qlobal Bakı Forumuna və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif yüksək səviyyəli görüşlərə ev sahibliyi edərək ən yüksək səviyyəli əməkdaşlıq platformasına çevrilib.

NIZAMI GANJAVI INTERNATIONAL CENTER